AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

Gəncə Dövlət Universitetinin Elmi Şurasının 28.03.2024-cü il tarixli (protokol № 07) Qərarı və rektorluğun 18.04.2024-cü il tarixli 5/122 saylı əmri ilə təsdiq edilmişdir.

GDU-nun rektoru _____prof. Y.Ə.YUSİBOV

"19" aprel 2024-cü il

İNFORMASİYA SİYASƏTİ

GƏNCƏ-2024

Azərbaycanda təşəkkül tapmış açıq informasiya siyasəti Universitet fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir. Gəncə Dövlət Universitetinin (GDU) İnformasiya siyasəti mövcud "Strateji Plan"a uyğun olaraq universitetin fəaliyyəti ilə bağlı ictimaiyyətin məlumatlandırılması sahəsində işlərin təşkilini və tənzimlənməsini, eləcə də KİV-lə əlaqələrin qurulmasını həyata keçirir.

GDU-nun İnformasiya siyasəti Universitetin tərəfdaşlar və ictimaiyyətlə informasiya dövriyyəsinə dair əlaqələrini düzgün və effektli şəkildə təşkil, eləcə də inkişaf etdirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır. İnformasiya siyasəti GDU-nun fəaliyyəti ilə media subyektləri ilə əlaqələrin qurulması, təbliğat və təşviqatın aparılması, ictimaiyyətin məlumatlandırılması, müvafiq xarici dövlət və qeyri-dövlət qurumlarının təcrübəsinin öyrənilməsi istiqamətlərində işlərin təşkilini və tənzimlənməsi məqsədi daşıyır, GDU-nun məqsəd və vəzifələrinin icrası çərçivəsində həyata keçirdiyi əməliyyatlar və tədbirlərə dair tərəfdaşların və ictimaiyyətin informasiya tələbatının ödənilməsinin prinsip, məqsəd və vəzifələrini müəyyən edir.

İnformasiya siyasətinin hüquqi əsasını Azərbaycan Respublikası Konstitusiyasının müddəaları, Azərbaycan Respublikasının "Media haqqında", "Məlumat azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının "Elm haqqında" və "Təhsil haqqında" Qanununu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, GDU-nun qərarları, universitetin Nizamnaməsi, Rektorun əmr və sərəncamlarına aid digər normativ aktlar təşkil edir.

İnformasiya siyasətinə əsasən universitet hazırladığı və yaydığı informasiya məhsullarında dövlət sirlərini yaymağa, ölkənin təhlükəsizliyinə, dövlətin bütövlüyünə qəsd etməyə, müharibəni, zorakılığı, milli, irqi, dini müstəsnalığı, dözülməzliyi, sosial ədavəti təbliğ etməyə, böhtan atmağa və digər qanun pozuntularına çağırışlara yol verməməlidir.

İNFORMASİYA SİYASƏTİNİN MƏQSƏDİNƏ UYĞUN FƏALİYYƏT

- Qanunvericiliklə nəzərdə tutulan bütün məlumatların vaxtlı-vaxtında, dəqiq və düzgün formada açıqlanmasının və ictimaiyyət üçün əlçatan olmasını təmin etmək
- GDU-nun fəaliyyətinin KİV-də işıqlandırılmasını və bununla bağlı zəruri tədbirlərin görülməsini təmin etmək
- GDU-nun təbliğat-təşviqat, maarifləndirmə və sosial informasiya sahəsində fəaliyyətini həyata keçirmək
- Ölkədə həyata keçirilən təhsil siyasəti, universitetin fəaliyyətinin məqsədi, istiqamətləri və nəticələri, müvafiq sahədəki yeniliklər barədə ictimaiyyətə planlaşdırılmış qaydada mütəmadi olaraq KİV, univeritetin rəsmi internet səhifəsi, sosial şəbəkələrdəki səhifələr və digər vasitələrlə məlumat vermək
- İnformasiya sorğularını qanunvericilikdə və Gəncə Dövlət Universitetinin "Sorğu Siyasəti"ndə nəzərdə tutulmuş qaydada cavablandırmaq və sorğular aparmaq
- Fakültələr və struktur bölmələri ilə sıx əməkdaşlıq edərək orada baş verən prosesləri izləmək, o cümlədən uğurlu layihələrin və tədbirlərin KİV-də işıqlandırılmasını təmin etmək
- Gəncə Dövlət Universitetində elmi və aktual mövzularla bağlı KİV-də gedən məlumatları toplamaq və müvafiq xəbərləri arxivləşdirmək
- Universitetin fəaliyyəti ilə bağlı zəruri yeniliklərin universitetin rəsmi internet səhifəsində yerləşdirmək, GDU-nun rəsmi internet səhifəsinin (gdu.edu.az), sosial şəbəkələrdəki səhifələrinin idarə etmək
- Rektorun və universitetin digər rəhbər şəxslərinin rəsmi və işgüzar xarakterli səfər və görüşlərinin informasiya təminatını təşkil etmək
- Universitet tədbirləri ilə bağlı ictimaiyyət və universitet əməkdaşlarını məlumatlandırmaq məqsədilə xəbərlərin elanını vermək
- Beynəlxalq təcrübənin öyrənilməsi, xarici dövlətlərin aidiyyəti qurumları və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığın aparılması istiqamətində tədbirlər görmək

- Universitetin fəaliyyəti ilə bağlı KİV-də yayımlanan və həqiqətə uyğun olmayan məlumatlarla bağlı zəruri hallarda cavab hazırlamaq və təhrif hallarının aradan qaldırılması üçün tədbirlər görmək
- Müəyyən edilmiş qaydada universitetin dövrü mətbuat orqanının yaradılması ilə bağlı təkliflər vermək və bununla əlaqədar zəruri tədbirlər görmək, jurnalların, reklamların, plakatların, informasiya vərəqlərinin, sorğu kitablarının nəşri və müxtəlif multimedia vasitələrinin hazırlanması işini təşkil etmək və ya təşkilində iştirak etmək
- Universitetdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə universiteti təmsil etmək, onların işində iştirak etmək

İNFORMASİYA SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ

- Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələblərinə riayət edilməsi
- Məlumat azadlığını tənzimləyən müəyyən olunmuş norma və qaydalara ciddi əməl olunması
- Dövlət və milli maraqların qorunması
- İctimaiyyətə təqdim olunan məlumatların tamlığının, həqiqiliyinin, təhlükəsizliyinin, mühafizəsinin sadə və operativ şəkildə əldə edilməsi imkanlarının təmin olunması
- Qanunvericiliyə və universitetin strategiyasına adekvat olması
- Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığına riayət olunması
- Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi
- Universitetin reputasiyasının qorunması
- Həqiqətə xidmət, dəqiqlik və obyektivlik
- Dürüstlük
- Vicdanlılıq
- Tolerantlıq
- Orjinallıq

- Məsuliyyətlilik
- Məmnuniyyətlilik
- Aktuallıq
- Şəffaflıq
- Tərəfsizlik
- Düzgünlük
- Müasirlik

İNFORMASİYA SİYASƏTİNİN TƏLƏBLƏRİ

GDU Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq ictimaiyyətə açıq hesab etdiyi və öz fəaliyyətində şəffaflığı təmin etmək naminə yaydığı sənədləri və digər informasiyanı hər bir maraqlı tərəfin əldə etməsini təmin etməlidir.

Universitet ictimaiyyəti öz fəaliyyətinə dair aşağıdakı informasiyalarla təmin etməlidir:

- Universitet tərəfindən görülmüş işlər barədə müvafiq məlumatlar
- GDU-nun fəaliyyətinə, eləcə də səlahiyyətlərinə aid olan məsələlərlə bağlı universitetin rəsmi mövqeyi
- Universitet rəhbərliyinin işgüzar səfərləri və görüşləri barədə məlumatlar
- Universitetlə bağlı müxtəlif təyinatlı təbliğat materialları- video çarxlar, ilhamverici hekayələr, fotosessiyalar və s.
- Universitet tədbirləri ilə bağlı xəbərlərin elanlar
- GDU ilə əlaqə yarada bilmək üçün mümkün olan bütün kommunikasiya vasitələri haqqında məlumatlar
- GDU-nun təbliğat-təşviqat və maarifləndirmə sahəsində fəaliyyət

GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNİN İNFORMASİYANI ÇATDIRMA VASİTƏLƏRİ

- Rəsmi internet səhifəsi (gdu.edu.az) ;
- Elektron poçt ;
- Universitetin sosial şəbəkələrdəki səhifələri;
- Yazılı məktub;
- Müxtəlif kütləvi informasiya vasitələri ilə ;